## “Təsnifat Cəmiyyətlərinin fəaliyyətlərinə razılıq verilməsi Qaydaları”

## 1. Ümumi müddəalar

1.1 Bu Qaydalar Ticarət Gəmiçiliyi Məcəlləsinin 15-ci maddəsinin, eləcə də Beynəlxalq Dəniz Təşkilatının “Tanınmış Təşkilatlar haqqında Məcəllə”nin (RO Code) (bundan sonra “Məcəllə”) MSC.349(92) və MEPC.237(65), A.739(18) və A.789(19) nömrəli Qətnamələrin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası (bundan sonra–Administrasiya) tərəfindən Təsnifat Cəmiyyətlərinin fəaliyyətlərinə razılıq verilməsi və belə təşkilatların fəaliyyətinə nəzarət edilməsi qaydasını müəyyən edir.

1.2. Bu Qaydaların məqsədi Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərin inşası, təmiri və istismarı zamanı yerli qanunvericiliyin və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinin yerinə yetirilməsidir.

1.3. Bu Qaydaların tələbləri Administrasiya tərəfindən fəaliyyətlərinə razılıq verilmiş bütün yerli və xarici təsnifat cəmiyyətlərinə şamil edilir.

## 2. Anlayışlar

2.1. Bu Qaydalarda istifadə edilən əsas anlayışlar aşağıdakılardır:

2.1.1. Təsnifat cəmiyyəti (bundan sonra – Cəmiyyət) —Azərbaycan Respublikasının ərazisində gəmilərin inşasına və ya təmirinə, eləcə də Azərbaycan Respublikasının Dövlət bayrağı altında Azərbaycan Respublikasının hüdudlarından kənarda gəmilərin inşasına texniki nəzarəti həyata keçirən cəmiyyət;

2.1.2. Təsnifat şəhadətnaməsi – cəmiyyət tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq verilən, gəminin struktur və mexaniki xarakteristikalar baxımından istifadəyə yararlığını təsdiq edən sənəd;

2.1.3. Yoxlama fəaliyyəti – Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə nəzərdə tutulmuş bütün yoxlamalar, tanınmalar, təsdiq etmə, sertifikatlaşdırma və digər nəzarət fəaliyyətləri;

2.1.4. Gəmi – özühərəkətedən və ya özühərəkətetməyən, ticarət gəmiçiliyi məqsədləri üçün istifadə olunan üzən qurğu.

## 3. Cəmiyyətin fəaliyyətinə razılıq verilməsinin əsasları

3.1. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərə texniki nəzarətin həyata keçirilməsi, onların yoxlanılması və sertifikatlaşdırılması üzrə fəaliyyətə razılıq verilməsi üçün müraciət edən cəmiyyətin qiymətləndirilməsi Administrasiya tərəfindən aparılır.

3.2. Təsnifat Cəmiyyətinə dair tələblər::

3.2.1. gəmilərin sayına və tipinə uyğun olaraq onların yoxlanılması və layihələndirilməsinin həyata keçirilməsi üzrə adekvat sayda kadrlara və texniki imkanlara malik olmalıdır;

3.2.2. müvafiq sahədə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görməlidir;

3.2.3. Texniki kadrlarının istənilən limanlarda gəmilərə texniki nəzarət etmək imkanları olmalıdır;

3.2.4. Cəmiyyətin mütəxəssisləri üçün “Etik davranış Qaydaları olmalıdır”;

3.2.5. Fəaliyyəti Administrasiya tərəfindən tələb olunan məlumatların konfidensiallılığını təmin imkanına malik olmalıdır;

3.2.6. Cəmiyyət tərəfindən gəmi sahibi və onların istismar etdiyi gəmilər barədə məlumatlar Administrasiyaya təqdim edilməlidir;

3.2.7. Bu Qaydaların 3.3.3-cü yarımbəndində qeyd edilən qaydalar və təlimatlar nəşr edilməli, mütəmadi olaraq yenilənməli və təkmilləşdirilməlidir;

3.2.8. Gəmi mülkiyyətçilərindən, gəmiləri inşa edən və ya gəmilərin inşasında, gəmi avadanlıqlarını istehsal edən və ya təchiz edilməsində, eləcə də gəmilərin təmirində və ya istismarında iştirak edən hüquqi və ya fiziki şəxslərdən asılı olmamalı və heç bir kommersiya maraqları olmamalıdır;

3.2.9. Cəmiyyət "Administrasiya adından fəaliyyət göstərən tanınmış təşkilatların yoxlama və sertifikatlaşdırma funksiyaları üzrə xüsusatlar" adlı, BDT-nin A.789(19) Qətnaməsinə əsasən müvafiq səriştəyə, Şəhadətləndirmə ilə əlaqədar funksiyalara dair imkanların və bacarıqların təşkil edilməsi, idarə edilməsi və nəzarət edilməsi və müvafiq qanunvericiliyin tələblərinin yerinə yetirilməsinin yoxlanılması ilə əlaqədar tələblərin yerinə yetirilməsi imkanına malik olmalıdır.

3.2.10. Cəmiyyət keyfiyyət və əmniyyətlilik standartlarının tətbiqi ilə əlaqədar sertifikatlaşdırılmadan keçmək üçün tədbirlərin görməlidir.

3.3. Cəmiyyət aşağıda göstərilən sənədləri təqdim etməlidir:

3.3.1. Ticarət gəmiçiliyi məqsədləri üçün istifadə edilməsi nəzərdə tutulan gəmilərin layihələndirilməsində, inşasının aparılmasında və qiymətləndirilməsində ixtisasa və təcrübəyə malik kadrların olduğunu təsdiq edən sənəd;

3.3.2. Təsnifatı altında olduğu gəmilərin sayına və tipinə uyğun olaraq onların yoxlanılması və layihələndirilməsinin həyata keçirilməsi üzrə adekvat sayda ixtisaslı və təcrübəli kadrlara malik olmasını təsdiq edən sənəd;

3.3.3. Ticarət gəmilərinin layihələndirilməsi, inşası və mütəmadi olaraq texniki müayinədən keçirilməsinə dair qaydalarının olmasını təsdiq edən sənəd.

3.4. Cəmiyyətin keyfiyyət və əmniyyətlilik standartları beynəlxalq səviyyədə tanınmalı, qəbul edilmiş müvafiq keyfiyyət standartlarına əsaslanan təşkilatdaxili sistem işlənib hazırlanmalı və tətbiq edilməlidir. Bu sistem Təsnifat Cəmiyyətləri Beynəlxalq Assosiasiyasının (İACS) Keyfiyyət Sistemlərinin Sertifikatlaşdırılması tələblərində istinad edilən EN 45004 (təftiş orqanları) və EN 29001 standartlarının, eləcə də Məcəllənin tələblərinə cavab verməlidir.

## 4. Cəmiyyətin Azərbaycan Respublikasındakı fəaliyyətinə dair tələblər

4.1. Cəmiyyət aşağıda sadalananları təmin etməlidir:

4.1.1. Cəmiyyət gəmilərin layihələndirilməsi, inşası və mütəmadi olaraq texniki müayinədən keçirilməsinə dair qaydalarının daim təkmilləşdirməli və qüvvədə olan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və onların əsasında qəbul edilən normativ hüquqi aktlara, eləcə də Azərbaycan Respublikasının yerli qanunvericiliyinə uyğunluğunu təmin etməlidir:

4.1.2. Cəmiyyət gəmilərin layihələndirilməsi, inşası və mütəmadi olaraq texniki müayinədən keçirilməsinə dair qaydalarının hazırlanması prosesində Administrasiyanın və digər maraqlı tərəflərin nümayəndələrinin iştirakını təmin etməlidir;

4.1.3. Administrasiyanın tələb etdiyi məlumatları mütəmadi olaraq Administrasiyaya təqdim etməlidir;

4.1.4. Gəmilərə verilən dərəcələr (təsnifat nişanı), həmçinin həmin dərəcələrin ləğvi, müvəqqəti olaraq etibarsız elan edilməsi və ya dəyişdirilməsini xarakterizə edən əsas məlumatları təxirə salınmadan Administrasiyaya təqdim etməlidir;

4.1.5. Cəmiyyət təsnifat şəhadətnaməsi verdiyi Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilər barədə, eləcə də həmin şəhadətnamələrin başqa cəmiyyətlərə ötürülməsi, dəyişdirilməsi, müvəqqəti olaraq dayandırılması və ya ləğvi barədə Administrasiyaya ayda 1 (bir) dəfədən az olmayaraq məlumat verməlidir.

4.2. Cəmiyyət Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərə texniki nəzarətin həyata keçirilməsi, onların yoxlanılması və sertifikatlaşdırılması üzrə fəaliyyəti Administrasiya ilə razılaşdırmaqla həyata keçirilir.

4.3. Cəmiyyətin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə Administrasiya Cəmiyyət ilə birlikdə və ya müstəqil olaraq Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə planlaşdırılmış və ya plandan kənar yoxlamalar həyata keçirməlidir.

4.4. Cəmiyyət tərəfindən Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərə beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş hallardan istisna hüququ verilməsi yalnız Administrasiya tərəfindən razılaşdırıldıqdan sonra həyata keçirilə bilər.

## 5. Cəmiyyətin fəaliyyətinin qiymətləndirilməsi

5.1. Bu Qaydalarda qeyd edilən meyarlara uyğunluğunu qiymətləndirmək məqsədilə Cəmiyyətin Administrasiya tərəfindən 5 (beş) ildə bir dəfə olmaqla yoxlanılması həyata keçirilir.

5.2. Yoxlamalar Cəmiyyətin baş ofisində və ya yerli ofislərində, həmçinin dərəcələndirdiyi gəmilərdə həyata keçirilir.

5.3. Yoxlamalar barədə məlumatlar Beynəlxalq Dəniz Təşkilatına təqdim edilə bilər.

5.4. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərə texniki nəzarəti, onların yoxlanılmasını və sertifikatlaşdırılmasını həyata keçirilməsi fəaliyyətinin yoxlanılması zamanı hər hansı Cəmiyyətin təsnifatında olan gəmilərdə aşkar edilmiş nöqsanlar, insan sağlamlığına və dənizin çirkləndirilməsi hallarının baş verməsi səbəblərinin aradan qaldırılmasının yoxlanılması 5 (beş) ildə bir dəfə olmaqla aşağıdakılar nəzərə alınmaqla müfəssəl qaydada həyata keçirilir;

5.4.1. Administrasiya ilə Cəmiyyət arasında bağlanmış əməkdaşlıq müqavilələrinin şərtlərinə əməl olunması;

5.4.2. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərin təsnifatı və ümumi statusu barədə məlumatların mütəmadi ötürülməsi;

5.4.3. Məcəllənin tələblərinə uyğun olaraq Təşkilatın keyfiyyətin idarəetmə sistemi;

5.4.4. Cəmiyyətin fəaliyyətinin Beynəlxalq Dəniz Təşkilatının Məcəlləsinə, A.739(18) və A.789(19) nömrəli Qətnamələrinə uyğunluğu;

5.4.5. Təsnifatı altında olduğu Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə aşkar edilən nöqsanlar, Dövlət bayraq nəzarəti və ya Dövlət liman nəzarəti yoxlamalarında onların saxlanılması, insan sağlamlığına və dənizin çirkləndirilməsi hallarının baş verməsi halları;

5.4.6. Cəmiyyətlərin dəniz nəqliyyatı sahəsində Azərbaycan Respublikasının yerli qanunvericiliyini bilməsi.

## 6. Cəmiyyətin fəaliyyətinə razılıq verilməsi ilə bağlı bağlanmış müqaviləyə xitam verilməsi

6.1. Gəmilərə texniki nəzarəti, onların yoxlanılmasını və sertifikatlaşdırılmasını həyata keçirən Cəmiyyətin yoxlama və sertifikatlaşdırma üzrə fəaliyyətinə Administrasiya tərəfindən aşağıdakı hallarda xitam verilə bilər:

6.1.1. Bu Qaydalarda qeyd edilən tələbləri yerinə yetirmədikdə;

6.1.2. Bağlanmış müqavilənin şərtlərini pozduqda;

6.1.3. Dənizdə insan həyatının mühafizəsi və təhlükəsizliyi, eləcə də dəniz mühitinin çirkləndirilməsinin qarşısının alınmasının təmin edilməsi məqsədilə gəmidə keçirilən ilkin, ara və yeniləmə yoxlamaları düzgün yerinə yetirilmədikdə və gəmi qeyd edilən tələblərə uyğun olmadıqda;

6.1.4. Cəmiyyət tərəfindən gəmi sahibi və onların istismar etdiyi gəmilər barədə məlumatlar aylıq olaraq elektron və ya yazılı formada hesabatları Administrasiyaya təqdim edilmədikdə.

## 7. Birgə əməkdaşlıq

7.1. Cəmiyyət öz fəaliyyətini texniki standartlara uyğun qaydada davam etdirə bilmək və texniki standartların tətbiqinə nail olmaq üçün dövri olaraq bu sahədə fəaliyyət göstərən digər cəmiyyətlər ilə məsləhətləşmələr aparmalı, Administrasiyaya həmin standartlarla əlaqədar hansı fundamental irəliləyişlərin baş verdiyi barədə mütəmadi olaraq hesabatlar təqdim etməlidir.

7.2. Cəmiyyətin təsnifat şəhadətnaməsi verdiyi gəmilərdə aşkarlanan nöqsanların və ya digər arzuolunmaz halların aradan qaldırılması məqsədi ilə xarici ölkələrin dövlət liman nəzarəti orqanları ilə əməkdaşlıq etməlidir.

7.3. Cəmiyyət reyestrdən məcburi və ya könüllü qaydada qeydiyyatdan çıxarılan, qeydiyyatı müvəqqəti olaraq dayandırılan gəmilərə dair yenilənmiş və qeydiyyatın silinməsinin əsaslandırıldığı hesabatları Administrasiyaya təqdim etməlidir.

7.4. Gəmilərin layihələndirilməsi, inşası və texniki müayinədən keçirilməsi zamanı Beynəlxalq Konvensiyaların Beynəlxalq Dəniz Təşkilatı tərəfindən qəbul edilmiş "Ümumiləşdirilmiş Şərh"lər adlı sirkulyar məktublarını nəzərə alınması üçün Administrasiya Cəmiyyətə göndərməlidir.

7.5. Gəmilərin layihələndirilməsi, inşası və texniki müayinədən keçirilməsi zamanı Azərbaycan Respublikasının yerli qanunvericiliyinini nəzərə alınması üçün Administrasiya yeni qəbul edilmiş normativ hüquqi və ya texniki normativ hüquqi Aktları Cəmiyyətə göndərməlidir.

## 8. Gəmilərə texniki nəzarətin həyata keçirilməsi, onların yoxlanılması və sertifikatlaşdırılması üzrə səlahiyyətlərin bir cəmiyyətdən digərinə ötürülməsi

8.1. Administrasiyanın icazəsi olmadan gəmilərə texniki nəzarətin həyata keçirilməsi, onların yoxlanılması və sertifikatlaşdırılması üzrə səlahiyyətlər bir cəmiyyətdən digərinə ötürülə bilməz. Cəmiyyət yalnız Administrasiyadan müvafiq razılıq əldə etdikdən sonra gəmiyə təsnifat şəhadətnaməsi və beynəlxalq konvensiyaların tələbləri ilə müəyyən edilən digər şəhadətnamələr verə bilər.

8.2. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərə verilən təsnifat şəhadətnamələrinin digər cəmiyyətlərə ötürülməsi, dəyişdirilməsi, müvəqqəti olaraq dayandırılması və ya ləğvi barədə məlumatlar, o cümlədən vaxtından gec aparılan texniki müayinələr, belə müayinələrə dair tövsiyələr, təsnifat şəhadətnaməsinin verilməsi şərtləri, gəmilərin istismar şəraiti, onların üzmə rayonlarına qoyulan məhdudiyyətlər haqqında

məlumatlar, eləcə də gəminin bütöv tarixçəsini əks etdirən sənədlər Administrasiyaya təqdim edilməlidir.

8.3. Gəmilərdə texniki nəzarətin həyata keçirilməsini öz üzərinə götürən Cəmiyyət gəmiyə təsnifat şəhadətnaməsini və konvensiyaların tələblərinə uyğun olaraq tələb olunan şəhadətnamələri yalnız vaxtı keçmiş texniki müayinələr lazımi səviyyədə aparıldıqdan, belə müayinələrlə əlaqədar tövsiyələrə əməl edildikdən, əvvəllər verilmiş gəmi şəhadətnamələrində ötürən tərəfin qeyd etdiyi bütün şərtlər yerinə yetirildikdən sonra verə bilər.

8.4. Gəmilərin təsnifatlandırmasına dair hüquqların bir Cəmiyyətdən digərinə ötürülməsi prosesinin bütün mərhələlərində ötürən tərəflə əldə edən tərəf bir-birlərinə müvafiq məlumatları təqdim etməlidirlər.

## 9. Yekun Müddəa

9.1. Administrasiya Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərə texniki nəzarətin həyata keçirilməsi, onların yoxlanılması və sertifikatlaşdırılması üzrə Cəmiyyətlərin siyahısını hazırlayır, həmin siyahını mütəmadi olaraq yeniləyir, rəsmi internet səhifəsində dərc edir və müvafiq beynəlxalq təşkilatların tələbləri onlara təqdim edir.